# Birdəfəlik ödəmələrin verilməsi sağlamlığını Vətənə fəda edənlərə dövlətimizin münasibətini əks etdirir

**İndiyədək Azərbaycan Prezidenti İlham Əliyev müharibə iştirakçıları, müharibə əlilləri, şəhid ailələri ilə bağlı bir çox fərman və sərəncamlar imzalayıb. Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsi dövlət başçısının sağlamlığını Vətənə fəda edənlərə yüksək münasibətini əks etdirir. Buna görə də, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları olaraq Azərbaycan Respublikasının Prezidentinə təşəkkürümüzü bildiririk. Biz bu qərarı yüksək dəyərləndiririk.**

Avqustun 2-də "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə birdəfəlik ödəmənin verilməsi Qaydası" təsdiq edilib.

Eyni zamanda, Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən növbəti sosial dəstək proqramına start verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə başlanılıb. Bu addım yalnız 44 günlük Vətən müharibəsi deyil, Birinci Qarabağ müharibəsinin iştirakçılarına da dövlət qayğısını göstərir. Bu göstərir ki, heç kəs yaddan çıxmır.

Prezident İlham Əliyev hələ 2021-ci il dekabrın 23-də "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının, habelə onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman imzalamışdır. Məlum Fərman və hazırkı sosial dəstək proqramına start verilməsi şəhid ailələri, qazilərlə yanaşı, əlillərin də hər zaman dövlətin diqqət mərkəzində olduğunu göstərir. Dövlət başçısının Birinci Qarabağ müharibəsi əlillərinə də birdəfəlik ödəmə verilməsinə dair növbəti sosial dəstək proqramı hər şeydən əvvəl göstərir ki, bu insanlar dövlətimiz, onun Prezidenti üçün son dərəcə əziz və hörmətə layiq şəxslərdir. Çünki həmin şəxslər Vətənin müdafiəsində əsl fədakarlıq edərək sağlamlıqlarını Vətənə, onun təhlükəsizliyinə qurban veriblər. Buna görə də, dövlətimiz bu insanların xidmətini daim qiymətləndirir, onların sosial rifahının gücləndirilməsi, məişət şəraitinin yaxşılaşdırılması, maddi təminatının artırılması üçün bütün mümkün imkanlardan istifadə edir. Bu baxımdan, hazırkı dəstək proqramı bu istiqamətdə atılan növbəti addımlardan biridir.

Eyni zamanda bu dəstək proqramı dövlətimizin, onun başçısının sosialyönümlü siyasətinin öz vətəndaşına verdiyi dəyərin göstəricisidir.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi və bilavasitə göstərişi ilə şəhid ailələrinin, müharibə əlillərinin, qazilərin sosial rifahının yaxşılaşdırılması, onların təminatının gücləndirilməsi istiqamətində mütəmadi dövlət siyasətinin həyata keçirildiyi məlumdur. Məhz bu siyasət nəticəsində Azərbaycan bu gün bütün dünyada şəhid ailələrinə, müharibə əlillərinə, veteranlara ən çox diqqət və qayğı göstərən dövlətlərdən biridir. Bununla yanaşı, dövlətimiz bu kateqoriyaya aid vətəndaşlarımızla bağlı böyük sosial layihələr həyata keçirir ki, bu layihələrin də miqyası olduqca genişdir.

Biz veteranlar olaraq dövlət başçısı cənab İlham Əliyevə müharibə əlillərinə, şəhid ailələrinə, qazilərə olan qayğıkeş münasibətə görə təşəkkürümüzü bildiririk. Bir daha bəyan edirik ki, cəmiyyətimizin bütün təbəqələri kimi veteranlarımız da Prezidentimizin siyasətini daim dəstəkləyir və bundan sonra da eyni qətiyyətlə dəstəkləməkdə davam edəcək.

**Cəlil XƏLİLOV,**
**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, polkovnik.**

Respublika.- 2022- ci il.- 4 avqust.- S. 7.